# Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1997-ci il yanvarın 1-də Azərbananın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 100 illiyi tamam olur.

Azərbaycan xalqı qarşısında böyük xidmətlərini nəzərə alaraq Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşaqıdakı tərkibdə komissiya yaradılsın:

***Komissiyanın sədri:***

Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini

***Komissiyanın üzvləri:***

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti aparatının humanitar siyasət şöbəsinin müdiri
Rəfael Allahverdiyev - Bakı şəhər icra hakimiyyətinin başçısı
Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri
Nizami Xudiyev - Azərzycan Respublikası Dövlət Televiziya zə Radio Verilişləri Şirkətinin sədri
Polad Bülbuloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri
Lidiya Rəsulova - Azərbaycan Respublikasının təhsil naziri
Eldar Salayev - Azərbaycan Respublikası Elmlər Akademiyasının prezndenti
Ataxan Paşayev - Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin rəisi
Mirməmməd Cavadzadə - Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru
Murtuz Ələskərov - Bakı Dövlət Universitetinin rektoru
Əhliman Əmiraslanov - Azərbaycan Tibb Universitetinin rektoru
Böyükkişi Ağayev - Elmi Tədqiqat Qastroenterologiya İnstitutunun direktoru
Nazim İbrahimov - "Azərbaycan" nəşriyyatının baş direktoru
Tamerlan Əliyev - Azərbaycan Tibb Universitetinin professoru

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Heydər ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 199b-cı il